# İşğaldan azad edilən ərazilərdə modern inkişaf strategiyası böyük uğurla həyata keçirilir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Regionların sosial-iqtisadi inkişafı istiqamətində dövlət tərəfindən atılan addımlar öz yüksək nəticələrini verməkdə, bu müstəvidə yeni nailiyyətlər əldə olunmaqdadır. Qeyd edək ki, Azərbaycan regionlarında dinamik inkişaf prosesinə 2003-cü ildən başlanıb və bununla bağlı olaraq indiyə qədər 4 dövlət proqramı qəbul edilib.**

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə regionların inkişafında yeni bir mərhələ başlanıb.

### Azad edilən ərazilərdə görülən işlər regionların tərəqqisinə yeni təkan verir

Bu gün Azərbaycan, digər regionlar kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına da xüsusi diqqət yetirməkdə, onların yenidən qurulması istiqamətində əməli addımlar atmaqdadır. Bunu Prezident İlham Əliyevin Füzuli və Zəngilana son səfərləri fonunda da aydın görmək mümkündür. Bu səfərlər bir daha təsdiq etdi ki, milli iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olaraq, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan dövləti genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verib. Vətən müharibəsinin başa çatmasından keçən dövr ərzində artıq bu müstəvidə mühüm addımlar atılıb, çoxsaylı layihələrin icrasına başlanıb. Azad olunan ərazilərdə görülən işlər konkret inkişaf strategiyasına əsaslanır, daha çox innovativ xarakter daşıyır. Bunu azad edilmiş rayonlarla bağlı hazırlanan baş planlar da təsdiq edir. Bu vaxta qədər Ağdamın, Şuşanın, Cəbraylın, Füzulinin baş planları qəbul edilərək icraya yönləndirilib. Həmin planlar hazırlanarkən dünyada ən qabaqcıl təcrübələr nəzərə alınıb, "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyası, təmiz ekoloji mühit, innovativ texnologiyalardan istifadə, hər rayona xas olan landşaftın, yaşıllıqların qorunub saxlanılması və bu qəbildən olan digər məqamlar əsas diqqət mərkəzində yer alıb.

Daha bir vacib məqam ondan ibarətdir ki, hazırlanan baş planlar həmin rayonun ictimaiyyəti ilə də müzakirəyə edilib, onların razılığından sonra Prezident İlham Əliyev tərəfindən təsdiq olunub. Füzuli rayon ictimaiyyəti ilə görüşündə Prezident İlham Əliyev azad olunan digər rayonların da baş planlarının hazırlandığını diqqətə çatdırdı: "Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik". Artıq dövlət başçısı Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Zəngilan şəhərinin baş planının hazırlanması üçün ilkin vəsaitin ayrılması haqqında sərəncam imzalayıb. Baş planla bağlı Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə qeyd edib: "İndi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bu təbii gözəlliyi nəzərə alaraq müasir, çox gözəl bir şəhər qurulacaq. Azad edilmiş torpaqlarda birinci "ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirilir. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq".

### Azərbaycan iqtisadiyyatı azad olunmuş ərazilər hesabına daha da güclənəcək

Aparılan təhlillər göstərir ki, "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyası, sağlam ətraf mühit, həyat tərzi, nəqliyyat və rabitə, rəqəmsal əsaslı şəbəkələr, digər tikinti və quruculuq işləri, modern infrastuktur Füzulini, Zəngilanı, digər azad olunan rayonları ən müasir yaşayış məskənlərindən birinə çevirəcək. Bu istiqamətdə artıq lazımı işlərə start verilib, Prezident İlham Əliyev tərəfindən yeni layihələrin təməli qoyulub. Yeri gəlmişkən qeyd edək ki, Zəngilan rayonuna səfəri çərçivəsində dövlət başçısı rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olub, "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji" ASC-nin "Zəngilan" yarımstansiyasının açılışında iştirak edib.



Zəngilanla yanaşı, məlumdur ki, Füzulidə də hava limanı inşa edilib. Özü də Füzuli Beynəlxalq Hava Limanı hər növ sərnişin və yük təyyarələrini qəbul edə bilir. Beynəlxalq uçuşları yerinə yetirmək üçün müvafiq standartlara cavab verən Füzuli Hava Limanına artıq beynəlxalq status da verilib. Füzuli Beynəlxalq Hava Limanının fəaliyyətə başlaması azad edilən ərazilərdə abadlıq-quruculuq prosesinin daha böyük intensivliklə davam etməsinə imkan verir. Çünki bu hava limanı böyük yük təyyarələrini də qəbul edə bilməklə Azərbaycana yeni logistika imkanları qazandırır. Bununla da daha böyük həcmdə yükləri daha qısa müddətdə azad edilmiş ərazilərə çatdırmaq mümkün olacaq və bu da həmin yerlərdə, o cümlədən Füzulinin özündə bərpa, quruculuq işlərini sürətləndirmək baxımından əlavə imkanlar yaradır. Beynəlxalq miqyasda artıq belə fikir hakimdir ki, qısa müddət ərzində Füzuli Beynəlxalq Hava Limanının inşası kimi nəhəng layihəni uğurla reallaşdırmağı bacaran Azərbaycan azad edilən bütün ərazilərdə bərpa, abadlıq-quruculuq işlərini də ən yüksək səviyyədə həyata keçirəcək. Belə abadlıq-quruculuq işləri üçün Azərbaycan bütün lazımi potensial və imkanlara sahibdir. Beləliklə, işğal dövründə ermənilərin viran qoyduğu, vandallıq aktları törətdiyi əraziləri Azərbaycan abadlıq-quruculuq işləri ilə cənnətə çevirir. Bunu azad edilmiş yerlərə səfər edən xarici jurnalistlər, diplomatlar və digərləri də təsdiq edir. Azad olunmuş ərazilərdə həyata keçirilən işlər Azərbaycan iqtisadiyyatının daha da güclənməsi, məşğulluq səviyyəsinin yüksəlməsi baxımından da müstəsna əhəmiyyət kəsb edir. Bu fonda xüsusən də aqrar biznes, ərzaq, dağ-mədən sənayeləri, "yaşıl enerji", nəqliyyat-logistika və turizm kimi mühüm qeyri-neft sahələrində qarşıdakı dövr ərzində ölkəmizdə daha dinamik inkişafın qeydə alınması proqnozlaşdırılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**